*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2025, № 2* *ISSN: 2663-4406*
*Səhifə: 60-68* *E-ISSN: 2709-2699*
*https://doi.org/10.59849/2663-4406.2025.2.60*

# Bəxtiyar Vahabzadə poeziyasında informasiya texnologiyalarının təzahürləri

*"Azərbaycanın böyük şairi Bəxtiyar Vahabzadə*
*Azərbaycanın şeir sənətini inkişaf etdiribdir,*
*onun mərd ürəyi var, onun xalqa məhəbbəti var,*
*o heç bir şeydən çəkinmədi, heç bir şeydən qorxmadı..."*

***Heydər Əliyev***

**Vüqar Mustafayev**
Texnika üzrə fəlsəfə doktoru, dosent
E-mail: vuqar.mustafayev@mdu.edu.az
Mingəçevir Dövlət Universiteti
https://orcid.org/0000-0002-0961-6712

**Leyla İsmayılzadə**
Mingəçevir Dövlət Universiteti
E-mail: leyla.ismayilzada@mdu.edu.az
https://orcid.org/0000-0003-0629-070X

**Annotasiya.** Məqalədə Bəxtiyar Vahabzadənin poeziyasında informasiya texnologiyalarının müxtəlif aspektləri geniş təhlil edilir. Müasir dövrdə informasiya texnologiyalarının insan həyatına təsiri onun poetik simvolizmində, zaman və informasiya axını anlayışlarında, eləcə də insan və texnologiya münasibətlərində öz əksini tapır. Şairin əsərlərində "hörümçək toru", "eksponat adam" kimi simvollar texnologiyanın milli kimlik və milli yaddaş üzərindəki təsirini poetik şəkildə göstərir. Zaman və informasiya axını mövzuları insan şüurunun formalaşması və milli yaddaşın qorunmasında önəmli rol oynayır. İnsan və texnologiya dialoqu Vahabzadənin poetikasında həm etik, həm də psixoloji problemləri ön plana çıxarır.
Məqalənin məqsədi Bəxtiyar Vahabzadənin sürətlə dəyişən informasiya dövründə poetik mövqeyini aydınlaşdırmaq, həmçinin oxucunu müasir texnologiya və milli şüur məsələləri haqqında düşünməyə dəvət etməkdir. Məqalədə şairin yaradıcılığı müasir informasiya cəmiyyətinə poetik və fəlsəfi baxış kimi təqdim edilir.
**Açar sözlər:** Bəxtiyar Vahabzadə, informasiya texnologiyaları, poeziya, simvolizm, zaman və informasiya axını, qeyri-səlis məntiq, milli kimlik, milli yaddaş, müasir ədəbiyyat

**Məqalə tarixçəsi:** göndərilib – 24.09.2025; qəbul edilib – 08.10.2025

# Manifestations of information technologies in the poetry of Bahktiyar Vahabzadeh

**Vugar Mustafayev**
Doctor of Philosophy in Engineering, Associate Professor
Mingachevir State University
E-mail: vuqar.mustafayev@mdu.edu.az
https://orcid.org/0000-0002-0961-6712

**Leyla Ismayilzade**
Mingachevir State University
E-mail: leyla.ismayilzada@mdu.edu.az
https://orcid.org/0000-0003-0629-070X

**Abstract.** This article provides an extensive analysis of various aspects of information technologies in the poetry of Bakhtiyar Vahabzadeh. The impact of information technologies on human life in the modern era is reflected in his poetic symbolism, concepts of time and information flow, as well as in the relationship between humans and technology. Symbols such as "spider's web" and "exhibit man" poetically represent the influence of technology on national identity and collective memory. Themes of time and information flow play an important role in shaping human consciousness and preserving national memory. The dialogue between humans and technology in Vahabzadeh's poetics highlights both ethical and psychological issues.
The purpose of this article is to clarify Bakhtiyar Vahabzadeh's poetic stance in the rapidly changing information era and to invite readers to reflect on modern technology and national consciousness. The article presents the poet's work as a poetic and philosophical view of the contemporary information society.
**Keywords:** Bakhtiyar Vahabzadeh, information technologies, poetry, symbolism, time and information flow, fuzzy logic, human consciousness, national identity, national memory, contemporary literature

**Article history:** received – 24.09.2025; accepted − 08.10.2025

## Giriş / *Introduction*

Azərbaycan poeziyasının və ədəbiyyatşünaslığının ən görkəmli nümayəndələrindən biri ustad şairimiz, xalqımızın milli iftixarı Bəxtiyar Vahabzadədir. Onun hər şeirinin, şeirinin hər bəndinin, hətta hər misrasının öz hikməti, öz fəlsəfəsi var. Fəlsəfə isə bütün elmlərin anasıdır, onda riyaziyyat da var, ədəbiyyat da, fizika da, tarix də, o cümlədən informasiya texnologiyaları da... Ona görə də Bəxtiyar Vahabzadənin əsərlərində müxtəlif elmlərin, o cümlədən informasiya texnologiyalarının təzahürlərinin olması məntiqəuyğundur.

Digər tərəfdən filosof-şair kimi Bəxtiyar Vahabzadə üçün dünən, bu gün və sabah kimi zaman anlayışları şərti xarakter daşıyır. Bu baxımdan da onun poeziyasında keçmişin və öz dövrünün reallıqlarının əks olunması ilə bərabər, gələcəyin də proqnozlarının verilməsi təbiidir. Öz dövrünü qabaqlaması, elmin yaranmaqda olan yeni sahələrinin, o cümlədən informasiya texnologiyaları ilə, hətta qeyri-səlis məntiq ilə bağlı bəzən aşkar, bəzən isə sətiraltı fikirlərin yer alması Bəxtiyar Vahabzadə yaradıcılığına xas olan keyfiyyətlərdir.

Müasir dövrdə informasiya texnologiyalarının sürətli inkişafı insan həyatının bütün sahələrinə əhəmiyyətli təsir göstərməkdədir. Bu təsir sosial, mədəni, iqtisadi, həmçinin ədəbi sahələrdə özünü göstərir. Poeziya bu dəyişiklikləri lirik, metaforik və simvolik dildə çatdırmaq qabiliyyətinə malikdir. Müasir Azərbaycan poeziyasında Bəxtiyar Vahabzadə bu dəyişməni əsas mövzulardan birinə çevirmişdir. Onun şeirlərində texnologiya, informasiya axını və zamanın keçidi mühüm yer tutur. Vahabzadə informasiya texnologiyalarına tənqidi, eyni zamanda dərin empatiya ilə yanaşır.

O, bu mövzunu milli kimlik, psixoloji durum və etik məsələlər çərçivəsində təqdim edir. Bu vəziyyətdə şeir yalnız sənət əsəri deyil, həm də sosial şərh kimi çıxış edir.

İnformasiya texnologiyaları həm idarə edən, həm də idarə olunan bir vasitə kimi şairin baxışlarında önə çıxır. Vahabzadənin poetik simvolizmində "hörümçək toru", "eksponat adam" və s. kimi metaforalardan istifadə olunur. Bu obrazlar texnologiya ilə əlaqəli sosial problemlərə müraciət edir. Zaman və informasiya axını şairin poetik dünyasında qarşılıqlı əlaqədədir. Bu qarşılıqlı əlaqə insan şüurunun formalaşması ilə birgə gedir.

İnformasiya axını həm insanı inkişaf etdirir, həm də onun şəxsiyyətini zərbə altında qoyur. Milli kimlik bu mühitdə yeni vasitələrlə qorunmalı, yeni formaya salınmalıdır. Poeziya bu qorunma vasitələrindən biridir. Bəxtiyar Vahabzadə milli yaddaşı, tarixi faktları, dil və adət-ənənələri informasiya prosesində poetik şəkildə qoruyur. Onun şeirlərində zaman keçidi ilə milli yaddaş arasında sıx əlaqə vardır. Bu əlaqə ədəbiyyatda zamanda sabitlik yaratmaq üçün vasitə hesab olunur.

## Əsas hissə / *Main part*

### Bəxtiyar Vahabzadə poeziyasında informasiya texnologiyalarının poetik simvolizmi

Bəxtiyar Vahabzadənin poeziyasında informasiya texnologiyalarının simvolik təsviri onun poetik irsinin vacib elementlərindən biridir. O, bu mövzunu yalnız texniki tərəfdən deyil, daha çox sosial-psixoloji kontekstdə işləyib və bu, onun əsərlərinə dərinlik və universal əhəmiyyət qatıb. Şairin "Cavab" şeirində deyildiyi kimi,

*"...Sən özgə daşını özünə atdın...*
*...Əyilmə özgəyə öz mənzilində..."* [3]

mesajı milli informasiya mühitində möhkəm dayanmaq, öz kimliyini qorumaq zərurətini simvolizə edir. Burada "öz mənzili" ifadəsi milli informasiya məkanını, "özü" isə millətin özünü ifadə edir. Texnologiyanın da daxil olduğu rəqəmsal informasiya mühiti milli varlığın qorunması baxımından meydan rolunu oynayır. Şairin "Hörümçək tor bağladı" şeirində aşağıdakı misralar xüsusilə diqqət çəkir:

*"...Tarix kitablarında hörümçək tor bağladı...*
*... Dilimiz yasaq oldu,*
*Ruhumuz qəlbimizdə əbədi dustaq oldu..."* [6]

Burada "hörümçək toru" informasiya mənbələrinin, xüsusən də tarixi yaddaşın manipulyasiya olunmasını simvolizə edir. "Dilimiz yasaq oldu" misrası milli dilin informasiya nəzarəti ilə zəbt olunmasını, milli ruhun əsarət altında qalmasını ifadə edir. Bu simvolizm texnologiyanın informasiya manipulyasiyasının daşıyıcısı kimi çıxış edir. Şairin "Vaxt aldanmadı" şeirindəki:

*"...Dünyanın ən hiyləgər, mahir kələkbazları*
*Saat ilə təqvimə əl qata bilmədilər,*
*Yalnız vaxtı, zamanı aldada bilmədilər".* [6]

misraları saxta informasiyanın və manipulyasiyanın müvəqqəti olmasını, əsl həqiqətin zaman qarşısında gizlədilə bilməyəcəyini simvolizə edir. Burada zaman və informasiya axını arasında dialoq diqqət çəkir. Şairin "Eksponat adam" şeirindəki:

*"(İnsanın* – V.M. və L.İ.*) ... özü muzeylərin eksponatı"* [8]

misrası müasir insanın texnologiyanın idarəsində ruhən donuq, mənən sönük və passivləşmiş vəziyyətini göstərir. Burada insanın həyatının texnologiya "muzeyi"ndə sərgilənən eksponat statusuna çevrilməsi tənqidi poetik yanaşmadır.

Bu simvolik obrazlar vasitəsilə Bəxtiyar Vahabzadə informasiya texnologiyalarının müsbət və mənfi cəhətlərini bədii formada təsvir edir. O, oxucunu informasiya manipulyasiyasına, milli kimliyin, yəni milli identifikasiyasının məhv olunmasına qarşı ayıq olmağa çağırır. Onun poetik dili texnologiyanın mürəkkəb və çoxşaxəli təbiətini anlamaq üçün zəngin vasitədir.

Bəxtiyar Vahabzadənin şeirlərində düşüncə axını sistemli şəkildə məntiqi ardıcıllıqla təqdim olunur. Bu, mühəndislikdəki alqoritmik yanaşma ilə paralellik təşkil edir [2]. Məsələn, məşhur "Gülüstan" poeması vahid süjet xəttinə malik olmamasına baxmayaraq, əsərdəki hadisələr səbəb-nəticə əlaqəsi ilə bir-birini izah edir. Hər bölmə növbəti mərhələ üçün zəmin yaradır. Məlum olduğu kim, belə məntiqi ardıcıllıq analitik düşüncənin formalaşmasında mühüm rol oynayır. Əsərin poetik konstruksiyası – bölmə və bəndləri sistem bloklarına bənzədilə bilər. Misralar arasındakı əlaqələr kod parçaları arasındakı əlaqələrə analojidir.

**Bəxtiyar Vahabzadə poeziyasında informasiya axını və zaman**

Bəxtiyar Vahabzadənin poeziyasında zaman və informasiya axını qarşılıqlı təsirdədir və milli yaddaşın qorunmasında mühüm rol oynayır. Şair "Vaxt" şeirində deyir:

*"Ömrün hər pilləsində başqalaşır təbimiz,*
*Dünyada məqsədimiz, dünyadan tələbimiz".* [7]

Burada zamanın dəyişkənliyi və onun insan həyatına, xüsusilə də milli şüura təsiri poetik dil ilə vurğulanır. Zaman və informasiya axını insanın varlığını formalaşdıran dinamik elementlər kimi təsvir olunur. Şairin "Axı, dünya fırlanır..." şeirindəki:

*"Hər il başqa arzunun başına fırlanıram,*
*Niyə də fırlanmayım, axı, dünya fırlanır..."* [8]

misraları zamanın davamlı dəyişməsi və informasiya axınının insan həyatında yaratdığı təzyiqləri əks etdirir. Bu, milli yaddaşın dövri təzələnməsi və yeni çağırışlarla qarşılaşmasının poetik təsviridir. Həmin şeirdəki:

*"Dünya bina olandan hər şey dəyişilərmiş,*
*Dəyişməsin neyləsin, axı, dünya fırlanır".* [8]

misraları isə informasiya texnologiyalarının əsas xüsusiyyətlərindən biri olan dəyişkənlik, inkişaf və dinamikanı çox dərin və simvolik şəkildə ifadə edir. "Dünya fırlanır" misrası davamlı hərəkəti və axını simvolizə edir. Bu, informasiya texnologiyalarındakı məlumat dövriyyəsinə analojidir. Şairin "Vaxt aldanmadı" şeirindəki:

*"Bu yalan bazarında aldadan da özünü*
*Haqlı bilir, haqq sanır".* [9]

misraları zamanın dəyişməz həqiqət kimi informasiya təhriflərinə qarşı dayanıqlığını göstərir. Zaman oxucuya əsl reallığın müddəası kimi təqdim olunur.

Bəxtiyar Vahabzadənin şeirlərində zaman, tarix, informasiya və mənəvi dəyərlər arasında qurduğu münasibətlər, müasir informasiya texnologiyaları və verilənlər (*data*) elmi nöqteyi-nəzərdən maraqlı semantik assosiasiyalar yaradır. Şairin aşağıdakı misraları buna bariz nümunədir:

*"Siyasət fitinə könülsüz, naçar,*
*Zaman oynasa da, tarix oynamaz".* [6]

Bu bədii ifadə bir tərəfdən ictimai və siyasi manipulyasiyaların mümkünlüyünə, digər tərəfdən isə tarixi həqiqətlərin və zamanın sınağından keçmiş bilgilərin dəyişməzliyinə işarə edir. İnformasiya texnologiyalarında bu münasibət real vaxt rejimində (*real-time*) işlənən məlumatlar ilə statik, arxivləşdirilmiş (*historical data*) verilənlər arasındakı fərqə bənzəyir.

"Zaman oynayır" ifadəsi cari məlumatların asanlıqla dəyişdirilə bilməsi, sosial media və xəbər axınlarında məlumatın manipulyasiyaya açıq olması ilə əlaqələndirilə bilər. Halbuki "tarix oynamaz" ifadəsi blokçeyn (*blockchain*) texnologiyasında məlumatların bir dəfə yazıldıqdan sonra dəyişdirilməsinin mümkün olmaması prinsipinə uyğun gəlir. Blokçeyn sistemlərində hər bir məlumat vahidi zamana möhürlənmiş şəkildə qeydə alınır və geri dönüb dəyişdirilə bilməz – bu, şairin vurğuladığı "tarixin dəyişməzliyi" ilə paralellik təşkil edir.

Digər tərəfdən, "siyasət fitinə könülsüz, naçar" misrası, alqoritmik neytrallıq anlayışına yaxın poetik bir yanaşmadır. Süni intellekt sistemlərində də bəzən alqoritmlər müəyyən siyasi və ya sosial yönümlərlə manipulyasiya oluna bilər, lakin texnologiyanın ideal forması belə təsirlərdən azad, neytral və faktlara əsaslanan olmalıdır. Şair burada sanki ideallar və reallıqlar arasında bir fərq qoyur.

Sitat kimi gətirilən bu misralar Bəxtiyar Vahabzadənin zaman konsepsiyasının fəlsəfi əsasını təşkil edir. O, zamanı sadəcə, keçmişdən gələcəyə axan xətt kimi yox, informasiya dövründə milli və insanlıq varlığının formalaşmasında fəal element kimi təsvir edir. Şair üçün zaman və informasiya axını milli kimliyin qorunmasında həm təhlükə, həm də ümid mənbəyidir.

**İnsan və informasiya texnologiyaları: Vahabzadənin poetik baxışı**

İnformasiya texnologiyalarının sürətli inkişafı insanın daxili dünyasında həm yeni imkanlar, həm də çağırışlar yaradır, bu isə onun mənəvi və sosial kimliyində müxtəlif mürəkkəbliklərə səbəb olur [1]. Bəxtiyar Vahabzadənin poeziyasında insanın informasiya texnologiyaları qarşısındakı vəziyyəti həm etik, həm də psixoloji aspektlərdən geniş təhlil edilir.

Bəxtiyar Vahabzadənin "Eksponat adam" şeirindəki yeniliklərə qapalı düşüncə tərzini tənqid etdiyi aşağıdakı misralar informasiya texnologiyaları kontekstində mühüm çağırışları poetik dillə ifadə edir:

*"Düzü, beləsiylə danışmaq çətin.*
*Əsnədim.*
*Adamın yuxusu gəlir.*
*Özü muzeylərin eksponatı,*
*Sözündən naftalin qoxusu gəlir..."* [8]

Bu misralar köhnəlmiş, statik və dəyişməyə müqavimət göstərən informasiya sistemlərini simvolizə edir. Burada "muzey eksponatı" və "naftalin qoxusu" ifadələri texnologiyada *legacy systems* adlanan, köhnəlmiş, funksionallığını itirmiş, lakin hələ də istifadə olunan sistemlərə işarə edir. Şairin təqdim etdiyi bu obrazlar müasir dövrdə rəqəmsal transformasiyanın zəruriliyini, istifadəçi yönümlü və adaptiv texnologiyaların əhəmiyyətini önə çıxarır. Belə sistemlər informasiya axınını ləngidir və istifadəçi təcrübəsini zəiflədir ki, bu da texnologiyada "əslində danışmağın belə çətin olması" ilə üst-üstə düşür.

Bəxtiyar Vahabzadənin bəyanat kimi səslənən, türkçülüyün himninə çevrilmiş "Mən türkəm" adlı məşhur şeirindəki aşağıdakı misralara nəzər yetirək:

*"Əslimi, nəslimi tanıyıram mən,*
*Qarışıq deyiləm, özümdən hürkəm.*
*Sən kimsən, sən nəsən, özün bilərsən,*
*Mən ilk qaynağımdan türk oğlu türkəm!"* [4]

Şairin "əslimi, nəslimi tanıyıram" – deməsi, bir fərdin öz mənbəyini tanıması, yəni informasiya mənbəyinin orijinallığı və identifikasiyası kimi izah oluna bilər. İnformasiyada da hər hansı məlumatın doğruluğunu və mənbəyini tanımaq əsasdır. "Mən ilk qaynağımdan türk oğlu türkəm" misrası isə istifadəçinin öz orijinal kimliyini təsdiqləməsi kimidir. Bu, müasir informasiya sistemlərində autentifikasiya və şəxsiyyətin doğrulanması ilə bağlıdır. "Qarışıq deyiləm, özümdən

hürkəm" sözləri məlumatın dəyişdirilmədiyini və təhrif olunmadığını vurğulayır. Bu, məlumat təhlükəsizliyi və məlumatın bütövlüyü (*data integrity*) prinsiplərinə bənzərdir. Yəni bu misralar informasiya texnologiyalarında kimlik, məlumat mənbəyi və bütövlüyün qorunması kimi anlayışlarla simvolik şəkildə əlaqələndirilə bilər. Bu cür yanaşma poeziyanı rəqəmsal texnologiyalarla fəlsəfi müstəvidə birləşdirir. Həmin şeirdən digər misralara baxaq:

*"Sübutdur, dəlildir, ağlın qibləsi,*
*Dəyişə bilərsən adımı ancaq.*
*Canım çıxanadək qəlbimin səsi,*
*"Türkəm" – gerçəyini pıçıldayacaq".* [4]

"Dəyişə bilərsən adımı ancaq" misrası, bir istifadəçinin görünən adını (*username*) dəyişə biləcəyini, amma daxili unikal identifikatorunun (məsələn, ID, MAC adress və ya biometrik məlumatlar) dəyişməz olduğunu xatırladır. "Sübutdur, dəlildir, ağlın qibləsi" ifadəsi, doğrulanmış və sübutlara əsaslanan informasiyanın, yəni etibarlı və sınaqdan keçmiş məlumatların vacibliyinə işarədir. Bu, elmi yanaşma və data-driven decision making konsepsiyasına uyğun gəlir. "Qəlbimin səsi... pıçıldayacaq" misrası, sistemin içindən gələn siqnal, yəni daxili alqoritm və ya core processing unit tərəfindən təsdiqlənən bir həqiqət kimidir. İnformasiyada bu, sistemin özünəməxsus daxili identifikasiya və ya şifrələnmiş məlumatın sabitliyini simvolizə edə bilər. Beləliklə, bu misralar informasiya texnologiyalarında autentiklik, dəyişməz əsas identifikasiya və məlumatın etibarlılığı kimi anlayışlarla maraqlı şəkildə assosiasiya edilə bilər. Şairin milli kimlik və ruh sabitliyinə vurğusu, texnologiyada sistem sabitliyi və məlumatın dəyişdirilə bilməyən təməl əsasları ilə müqayisə edilə bilər.

**Bəxtiyar Vahabzadənin şeirlərində qeyri-səlis məntiqin poetik təzahürləri**

Qeyri-səlis məntiq informasiya texnologiyalarında qeyri-müəyyən və natamam verilənlərin emalı üçün çevik və adaptiv qərarvermə mexanizmləri yaratmağa imkan verir. Klassik məntiqdən fərqli olaraq, qeyri-səlis məntiq iki qütb arasında mövcud olan aralıq vəziyyətləri nəzərə alaraq, real həyatın mürəkkəb və təxmini məqamlarını daha dəqiq ifadə edə bilir. Bu yanaşma süni intellekt, ekspert sistemləri və avtomatlaşdırılmış idarəetmə sahələrində insan təfəkkürünə daha yaxın və intuisiya əsaslı qərarların qəbul edilməsini təmin edir.

Bəxtiyar Vahabzadənin şeirlərində qeyri-səlis məntiqin bu elementlərinin poetik şəkildə əks olunduğu nümunələr mövcuddur. Məsələn, şairin "Xeyirlə şər arasında" adlı məşhur şeirində yer alan aşağıdakı misralar qeyri-səlis məntiqin əsas prinsiplərini, yəni iki zidd qütb arasında mövcud olan, aydın sərhədlərlə müəyyənləşdirilməyən vəziyyətləri ifadə edir:

*"Vaxt gəmirir hər binanı*
*Tavanla tir arasında.*
*Bir rəqəm də, demə, varmış*
*İkiylə bir arasında".* [7]

Burada "ikiylə bir arasında" ifadəsi qeyri-səlis məntiqdə olduğu kimi, tək və ya ikili həqiqətdən fərqli olaraq, çoxluq və aralıq qiymətlərin mövcudluğunu vurğulayır.

Həmçinin "Hara gedir" şeirindəki:

*"Bu dünyanın min sifəti, rəngi var,*
*Qismətimiz – ağından çox qarası!"* [7]

misralari dünyanın qara və ağ kimi iki sərt kateqoriyadan ibarət olmadığını, əksinə çoxsaylı fərqli tonlar və vəziyyətlərdən təşkil olunduğunu poetik şəkildə göstərir. Bu isə qeyri-səlis məntiqin çoxluq dərəcələrini və qeyri-müəyyənliyi əks etdirən əsas məqamlarına bənzəyir.

Bununla yanaşı, "Yalan dünya" şeirindən aşağıdakı bənd də qeyri-səlis məntiqin poetik təsvirinə gözəl nümunədir:

*"Min rəngi var, min donu var,*
*Neçə-neçə oyunu var,*
*Nə əvvəli, nə sonu var,*
*Yalan dünya, yalan dünya!"* [9]

Bu bənddə şair dünyanın çoxşaxəli, sonsuz dəyişkən və qeyri-müəyyən olduğunu vurğulayır. "Min rəngi var, min donu var" ifadəsi hadisələrin çoxsaylı və fərqli təzahürlərini bildirir, "nə əvvəli, nə sonu var" misrası isə sərt zaman və məkan sərhədlərinin olmadığını göstərir. Beləliklə, bu poetik təsvir qeyri-səlis məntiqin sərt doğru-yanlış ikiliyindən fərqli olaraq, çoxlu həqiqət dərəcələrinin və aralıq vəziyyətlərin mövcudluğunu açıq şəkildə ifadə edir.

Bəxtiyar Vahabzadə dostu M.Sadiq müəllimə həsr etdiyi "Sevincin zirvəsi, dərdin zirvəsi" şerində deyir:

*"Qarışıb dünyanın yaxşı-yamanı,*
*Əzabı, ləzzəti, sevinci, qəmi.*
*Göründüyü kimi gördüm dünyanı,*
*Çox vaxt görəmmədim olduğu kimi".* [8]

Doğrudan da dünyanı olduğu kimi görə bilmək çox hallarda və çoxlarına müyəssər olmur. Zira, qeyri-müəyyənliklərlə, bəzən hətta sağlam düşüncəyə zidd, məntiqə uyğunsuz görünən müəmmalarla dolu dünyanın dərk edilməsi yalnız qeyri-səlis məntiqə əsaslanan fəlsəfəsi olanlar üçün, yəni Bəxtiyar Vahabzadə kimi filosof-şairlər üçün əlçatandır. Bu fəlsəfədə Bəxtiyar Vahabzadə əzabda ləzzəti, ləzzətdə əzabı, qəmdə sevinci, sevincdə qəmi görə bilir.

Bəxtiyar Vahabzadənin məşhur "Şair – Vətən" adlı şeirindəki aşağıdakı misralara nəzər salaq:

*"Vətəni sevməkdə nə qayda, qanun?*
*Vətən sevgisinin hüdudu varmı?"* [5]

Bu misralar vətən sevgisinin ölçüyəgəlməz, kəmiyyətlə ifadə olunmayan mahiyyətini önə çıxarır ki, bu da qeyri-səlis məntiqin əsas prinsipləri ilə üst-üstə düşür. Qeyri-səlis məntiq klassik "var-yox", "doğru-yanlış" tipli sərt qiymətləndirmələrdən fərqli olaraq, hiss və dəyərlərin **subyektiv, dərəcəli və şərti** ifadəsinə imkan yaradır. Şairin sual formasında verdiyi bu misralar, vətən sevgisinin **fuzzy (*qeyri-səlis*)** kateqoriyaya aid olduğunu, yəni məntiqi sərhədlərlə deyil, hissi və mənəvi dəyərlərlə təyin olunduğunu göstərir. Beləliklə, bu poetik ifadələr qeyri-səlis məntiqdə **insani faktorların və dəyər əsaslı qərarların** modelləşdirilməsinin mümkünlüyünə poetik baxış təqdim edir.

Bəxtiyar Vahabzadənin digər bir şeirində – "Nəsə çatmır" adlı poetik fəlsəfəsində isə biliklərin və sirlərin mahiyyəti qeyri-səlis düşüncə strukturlarına uyğun şəkildə təqdim olunur:

*"Hər bir sirri açan zaman*
*Açılan sirr,*
*Min bir sirrin*
*Varlığından xəbər verir.*
*Açıldıqca*
*Açılmayan azalmayır".* [9]

Bu misralar informasiya sistemlərində qeyri-müəyyənliyin artan strukturu və biliklərin sonsuzluq prinsipi ilə səsləşir. Burada "açıldıqca açılmayan azalmayır" fikri qeyri-səlis məntiqin klassik xüsusiyyətlərindən biri olan inkişaf etdikcə, daha çox qeyri-müəyyənliklə qarşılaşma

(*information expansion paradox*) prinsipini ifadə edir. Hər əldə olunan məlumatın yeni, hələ açıqlanmamış və dərəcəli şəkildə müəyyənləşmiş bilik sahələrinə işarə etməsi, həm *fuzzy logic* sistemlərində, həm də süni intellektin öyrənən modellərində rast gəlinən bir hadisədir. Bu cür yanaşma, həmçinin informasiya axtarışında adaptiv təhlil və intuitiv nəticə çıxarma imkanlarını nəzərə almağın vacibliyini vurğulayır.

Beləliklə, Bəxtiyar Vahabzadənin yaradıcılığında mövcud olan bu poetik obrazlar və ifadələr, müasir informasiya texnologiyalarının təməlini təşkil edən qeyri-səlis məntiq prinsiplərinin ədəbi bədii interpretasiyası kimi qiymətləndirilə bilər.

## Nəticə / *Conclusion*

Bəxtiyar Vahabzadənin poeziyasında informasiya texnologiyalarının təzahürləri onun poetik dünyasının əsas və aktual problemlərindən biridir. Şair bu mövzunu simvolik, zaman və informasiya axını, insan-maşın münasibətləri aspektlərindən dərinliklə təhlil edir. Onun simvolizmində "hörümçək toru", "eksponat adam" kimi metaforalar texnologiyanın insan və milli şüura təsirini poetik şəkildə əks etdirir. Zaman və informasiya axını mövzusu isə müasir dünyanın sürətli dəyişkənliyini və milli yaddaşın qorunmasının vacibliyini vurğulayır. İnsan və texnologiya münasibəti isə dualist, həm qorxu, həm ümid işarəsi olaraq təqdim olunur. Vahabzadə bu mövzuda milli kimlik və insan azadlığı məsələlərini diqqət mərkəzində saxlayır. Onun poeziyası informasiya dövründə ədəbi-estetik və sosial-fəlsəfi dialoqun mühüm nümunəsidir. Bu baxımdan, şairin yaradıcılığı müasir çağın çağırışlarına poetik cavabdır və Azərbaycan ədəbiyyatında yenilikçi yanaşma kimi qiymətləndirilə bilər.

Bəxtiyar Vahabzadənin əsərlərində informasiya texnologiyaları insanlığın həm gələcəyinə ümidlə baxış, həm də ehtiyatlı yanaşmanın simvoludur. O, milli kimliyi qorumağın və texnologiyanın verdiyi imkanlardan məsuliyyətlə istifadə etməyin vacibliyini vurğulayır. Bu baxımdan, onun poeziyası müasir ədəbiyyatın və mədəniyyətin informasiya çağında inkişafına zəngin töhfə verir. Vahabzadənin poetik universumu həm fərdi, həm də ümumbəşəri təcrübəni birləşdirərək oxucuda düşüncə və duyğuyaratma qabiliyyətinə malikdir.

Beləliklə, şairin yaradıcılığı informasiya texnologiyalarının insan həyatına təsirini bədii-estetik baxımdan dərk etmək üçün qiymətli mənbədir. Bu, ədəbiyyatşünaslıq, mədəniyyət tədqiqatları və informasiya cəmiyyətinə dair elmi araşdırmalar üçün əhəmiyyətlidir. Gələcəkdə Bəxtiyar Vahabzadənin bu mövzuda digər əsərlərini və qarşılıqlı ədəbi əlaqələrini araşdırmaq perspektivlidir. (*Müəlliflər bu araşdırmanı apararkən Bəxtiyar Vahabzadə yaradıcılığının mövzuya uyğun tam tədqiq və təhlil olunması iddiasından tamamilə uzaq olmuşlar, yalnız "dəryadan damla"ya bənzər kiçik bir məqalə üçün şairin zəngin poeziyasının müəyyən nümunələrini nəzərdən keçirmişlər.*)

Bəxtiyar Vahabzadənin zəngin poeziyası həm humanitar, həm də texniki elm sahələri üçün ilhamverici və tükənməz bir xəzinədir. Onun əsərləri mühəndislik ilə ədəbiyyat arasında, elm ilə poeziya, texnika ilə mədəniyyət arasında körpü rolunu oynayır ki, bu da bir daha qüdrətli Bəxtiyar Vahabzadə poeziyasının yalnız ədəbiyyatçılar üçün deyil, həm də mühəndislər üçün, texnika və texnologiya ilə qarşılıqlı əlaqədə olanlar üçün, bir sözlə, hər birimiz üçün əbədiyaşar və daim aktual və cəlbedici olduğunu göstərir.

Görkəmli ədəbiyyatşünas-alim və ictimai xadim, Azərbaycan xalqının böyük dostu, Qazaxıstanın xalq şairi Oljas Süleymenov demişdir: "Onun (*Bəxtiyar Vahabzadənin* – V.M. və L.İ.) poeziyasında Şərqə məxsus bütün gözəl keyfiyyətlər əksini tapıb. O, xalq şairidir, laureatdır. Onun ən böyük mükafatı elə xalqın sevgisidir".

**Ədəbiyyat / *References***


1. Əliyev R., Məmmədova S. Azərbaycan ədəbiyyatında informasiya və texnologiya mövzusu. – Bakı: Elm, 2010.
2. Əsgərli Ə. Azərbaycan poeziyasında məntiq və struktur. – Bakı: Elm, 2023.
3. Vahabzadə B. Seçilmiş əsərləri, I cild. – Bakı: Azərnəşr, 1974.
4. Vahabzadə B. Seçilmiş əsərləri, II cild. – Bakı: Azərnəşr, 1975.
5. Vahabzadə B. Seçilmiş əsərləri, II cild. – Bakı: Azərnəşr, 1976.
6. Vahabzadə B. Seçilmiş əsərləri, III cild. – Bakı: Yazıçı, 1983.
7. Vahabzadə B. Seçilmiş əsərləri, IV cild. – Bakı: Azərnəşr, 1985.
8. Vahabzadə B. Seçilmiş əsərləri, V cild. – Bakı: Yazıçı, 1987.
9. Vahabzadə B. Lirika. – Bakı: Azərnəşr, 1990.


## Проявление информационных технологий в поэзии Бахтияра Вахабзаде


**Вугар Мустафаев**
Доктор философии по техническим наукам, доцент
Мингачевирский Государственный Университет
E-mail: vuqar.mustafayev@mdu.edu.az
https://orcid.org/0000-0002-0961-6712

**Лейла Исмаилзаде**
Мингачевирский Государственный Университет
E-mail: leyla.ismayilzada@mdu.edu.az
https://orcid.org/0000-0003-0629-070X



**Резюме.** В статье подробному анализу подвергаются различные аспекты информационных технологий в поэзии Бахтияра Вахабзаде. В его поэтическом символизме, понятии время и поток информации находит своё отражение влияние в настоящее время информационных технологий на жизнь человека, а также отношения человека и технологии. В произведениях поэта символы «паутина», «экспонат человека» являются поэтическим воплощением влияния технологии на национальную идентификацию и национальную память. Тема «время и поток информации» играет решающую роль в формировании сознания человека и сохранении национальной памяти. В поэзии Бахтияра Вахабзаде на первый план выведен диалог человека и информации в аспекте как этической, так и психологической проблем.

Целью статьи является выявление поэтической позиции Бахтияра Вахабзаде в период стремительно меняющейся информации, а также привлечение читателя к осмыслению вопроса «современная технология и национальное самосознание». В статье творчество поэта представлено как поэтический и философский взгляд на современное информационное общество.



**Ключевые слова:** Бахтияр Вахабзаде, информационные технологии, поэзия, символизм, время и поток информации, непознаваемая логика, идентификация, национальная память, современная литература